# Dəyişkən çəkili məhsullara ştrixkod nömrələrin verilməsinin yeni qaydaları

"GS1" beynəlxalq təşkilatının ümumi spesifikasiyasına əsaslanaraq öz ərazisi çərçivəsində "GS1 Azərbaycan" cəmiyyəti pərakəndə satışa daxil olan dəyişkən çəkili məhsullar üçün ştrixkod nömrələrinin strukturu haqqında yeni qaydalar hazırlamışlar. Belə məhsulların identifikasiya nömrə - lərinin formatı və strukturu aşağıdakılardan ibarətdir:

| GS1 Azərbaycan prefiksi | Müəssisənin qeydiyyat nömrəsi | Məhsulun kodu | Dəyişkən həcmin dərəcələri (çəki, qiymət və s.) | Nəzarət rəqəmi |
|---|---|---|---|---|
| 476 | XXX | ID | VVVV | C |

XXX - "GS1 Azərbaycan" cəmiyyəti tərəfindən verilən qeydiyyat nömrəsi

ID - məhsulun identifikasiya kodu "GS1 Azərbaycan" cəmiy - yəti tərəfindən 01-99 hüdudunda verilir.

VVVV - məhsulun dəyişkən xassəsini (çəki, qiymət, və s.) göstərən 0001-9999 hüdudunda olan dərəcələrdir.

C - standart alqoritm ilə hesablanan nəzarət rəqəmidir.

Pərakəndə satış üçün nəzərdə tutulmuş dəyişkən çəkili məhsulların ştrixli kodlaşdırılma qaydaları unikal identifikasiyanı tə - min edir və pərakəndə qablaşdırılmış dəyişkən çəkili məhsulun ixracatı zamanı tətbiq edilir.

